**UDC:** 32.; 323.; 324.; 329.
**LBC:** 60.81; 60.82; 60.88
**MJ №** 345
10.33864/2617-751X.2025.v8.i6.251-264

# THEORETICAL AND CONCEPTUAL FOUNDATIONS OF POLITICAL STABILITY

**Ulkar Imamaliyeva***

**Abstract.** The concepts of "stability", "political stability" are used quite often, but a single interpretation has not yet been formed in scientific works. The term political stability is explained in the political science dictionary as follows: "Political stability is a state of stability that allows effective functioning and development under external and internal influences, capable of controlling the processes taking place in society". Thus, stability is a concept that characterizes both linear and probabilistic processes and events inherent in cause-effect regularities. Therefore, political stability should be viewed as a process that does not remain unchanged. The problem of political stability of the regime is one of the foundations of political science. S.Huntington, who achieved important scientific results in the field of studying political stability, noted that "the difference between stability and anarchy has a more fundamental nature than the difference between democracy and dictatorship". S.Huntington associates stability with the level of political institutionalization. The level of political institutionalization in society is directly proportional to stability. Ensuring political stability is considered an important task of political institutions. Although all the factors of political stability are analytically separate, they are so interconnected that the violation of one of them can result in the violation of the other. Political stability is classified on various grounds.

**Keywords:** political stability, political institutions, democracy, changes, SDG 16

---

* PhD student at the "Department of Political Science and Sociology", Baku State University; Baku, Azerbaijan
E-mail: imameliyeva_ulker@mail.ru
https://orcid.org/0009-0005-7131-2487

**To cite this article:** Imamaliyeva, U. [2025]. THEORETICAL AND CONCEPTUAL FOUNDATIONS OF POLITICAL STABILITY. *"Metafizika" journal, 8*(6), pp.251-264.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i6.251-264

***Article history:***
*Received: 27.05.2025*
*Accepted: 30.06.2025*
*Published: 04.09.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit
https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 32.; 323.; 324.; 329.
**ББК:** 60.81; 60.82; 60.88
**MJ №** 345
10.33864/2617-751X.2025.v8.i6.251-264

# ТЕОРЕТИЧЕСКИЕ И КОНЦЕПТУАЛЬНЫЕ ОСНОВЫ ПОЛИТИЧЕСКОЙ СТАБИЛЬНОСТИ

**Улькер Имамалиева***

**Абстракт.** Понятия «стабильность» и «политическая стабильность» употребляются достаточно часто, однако единой трактовки в научных трудах до сих пор не сложилось. Термин «политическая стабильность» в политологическом словаре объясняется следующим образом: «Политическая стабильность- это состояние устойчивости, позволяющее эффективно функционировать и развиваться в условиях внешних и внутренних воздействий и позволяющее контролировать процессы, происходящие в обществе». Таким образом, устойчивость- это понятие, характеризующее как линейные, так и вероятностные процессы и события, которым присущи причинно-следственные закономерности. Поэтому политическую стабильность следует рассматривать как процесс, который не остается неизменным. Проблема политической устойчивости режима является одной из основ политической науки. С. Хантингтон, добившийся важных научных результатов в области изучения политической стабильности, отмечал, что «различие между стабильностью и анархией более фундаментально, чем различие между демократией и диктатурой». С. Хантингтон связывает стабильность с уровнем политической институционализации. Уровень политической институционализации в обществе прямо пропорционален стабильности. Обеспечение политической стабильности считается важной задачей политических институтов. Хотя все факторы политической стабильности аналитически разделены, они настолько взаимосвязаны, что нарушение одного из них может привести к нарушению другого. Политическая стабильность классифицируется по разным признакам.

**Ключевые слова:** политическая стабильность, политические институты, демократия, изменения, ЦУР 16

---

* Докторант кафедры политологии и социологии, Бакинский Государственный Университет; Баку, Азербайджан
E-mail: imameliyeva_ulker@mail.ru
https://orcid.org/0009-0005-7131-2487

**Цитировать статью:** Имамалиева, У. [2025]. ТЕОРЕТИЧЕСКИЕ И КОНЦЕПТУАЛЬНЫЕ ОСНОВЫ ПОЛИТИЧЕСКОЙ СТАБИЛЬНОСТИ. *Журнал «Metafizika», 8(6),* с.251-264.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i6.251-264

***История статьи:***
*Статья поступила в редакцию: 27.05.2025*
*Отправлена на доработку: 30.06.2025*
*Принята для печати: 04.09.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**UOT:** 32.; 323.; 324.; 329.
**KBT:** 60.81; 60.82; 60.88
**MJ №** 345
10.33864/2617-751X.2025.v8.i6.251-264

# SİYASİ SABİTLİYİN NƏZƏRİ-KONSEPTUAL ƏSASLARI

**Ülkər İmaməliyeva***

**Abstrakt.** “Sabitlik”, “siyasi sabitlik” anlayışları kifayət qədər tez-tez istifadə olunur, hələ də elmi əsərlərdə vahid təfsiri formalaşmamışdır. Siyasi sabitlik termini politoloji lüğətdə belə izah olunur: “*Siyasi sabitlik – xarici və daxili təsirlərin altında səmərəli fəaliyyət göstərməyə və inkişaf etməyə imkan verən, cəmiyyətdə baş verən proseslərə nəzarət etməyə qabil olan dayanıqlılıq vəziyyətidir*”. Beləliklə sabitlik səbəb- nəticə qanunauyğunluqlarına xas olan həm xətti, həm də ehtimal mahiyyətli proses və hadisələri xarakterizə edən anlayışdır. Deməli siyasi sabitliyə dəyizməz qalmayan bir proses kimi baxmaq lazımdır. Rejimin siyasi sabitlik problemi siyasət elminin əsaslarından biridir. Siyasi sabitliyin öyrənilməsi sahəsində mühüm elmi nəticələr əldə etmiş S.Xantinqton qeyd edirdi ki, “sabitliklə anarxiya arasındakı fərq, demokratiya ilə diktatura amarasındakı fərqdən çox fundamental xüsusiyyətə malikdir”. S.Xantinqton sabitliy siyasi institutlaşmanın səviyyəsi ilə əlaqələndirir. Cəmiyyətdə siyasi institutlaşmanın səviyyəsi isə sabitliklə düz mütanasibdir. Siyasi sabitliyin təmin olunması siyasi institutların mühüm vəzifəsi hesab olunur. Siyasi sabitliyin bütün amilləri analitik cəhətdən nə qədər ayrı olsalar da, onlar bir-biri ilə o qədər bağlıdır ki, onlardan birinin pozulması digərinin də pozulması ilə nəticələnə bilər. Siyasi sabitliyin təsnifatı müxtəlif əsaslar üzrə aparılır.

**Açar sözlər:** siyasi sabitlik, siyasi institutlar, demokratiya, dəyişikliklər, SDG 16

* siyasi elmlər üzrə fəlsəfə doktoru,
Bakı Dövlət Universiteti Beynəlxalq münasibətlər fakültəsi politologiya və sosiologiya kafedrasının müəllimi; Bakı, Azərbaycan
E-mail: imameliyeva_ulker@mail.ru
https://orcid.org/0009-0005-7131-2487

**Məqaləyə istinad:** İmaməliyeva, Ü. [2025] SİYASİ SABİTLİYİN NƏZƏRİ-KONSEPTUAL ƏSASLARI. *“Metafizika” jurnalı, 8*(6), səh.251-264.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i6.251-264

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 27.05.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 30.06.2025*
*Çapa qəbul edilmişdir: 04.09.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Sosial sistemlərin sabitliyi hazırda diqqət mərkəzində olan problemlərdəndir. Sosial sistemin mövcudluğu onun strukturunun sabitlik dərəcəsini nəzərdə tutur ki, bu da sistemin öz keyfiyyətini saxlamasına imkan verir.

SSRİ-nin süqutu ilə dünyanın siyasi xəritəsində baş verən dəyişikliklər, inkişaf etməkdə olan və keçid dövrünü yaşayan ölkələrdə sabitləşmə prosesinin demokratik mexanizmi bu dövlətləri böhran vəziyyətindən tam xilas etmək gücünə qadir deyil. Bu gün beynəlxalq terrorçuluq, separatizm, millətlərarası münaqişələr, texnogen fəlakətlər dünya sosial sisteminin qeyri-sabitliyini artırır. Son illərdə dünyada baş verən qlobal siyasi proseslərlə bağlı siyasi sabitliyin müxtəlif növlərinin və onların sabitləşmə mexanizmlərinin öyrənilməsinə maraq yaranmışdır.

Siyasi sabitlik və ya qeyri-sabitlik cəmiyyət həyatının bütün sahələrinə birbaşa təsir göstərir. Sabitliyin dövlətlərin və xalqların taleyi üçün əhəmiyyəti artıq dərk edilməkdədir:

-siyasi sabitliyə nail olmadan davamlı iqtisadi sabitlik əldə etmək qeyri-mümkündür;

-böyük iqtisadiyyatlardakı sabitlik asanlıqla pozulmur;

-sərvətlərin ədalətlə paylandığı cəmiyyətlərdə sabitliyi pozmaq asan deyil;

-yüksək tarixi ənənəyə malik olan dövlətlərdə sabitlik asanlıqla pozulmur;

-idxalçı dövlətlər strateji məhsulları ixrac edən dövlətlərdə sabitliyi qoruyub saxlamağa səy göstərirlər;

-xarici sərmayəçilər inkişaf etməkdə olan dövlətlərdə sabitliyi qorumaqda maraqlıdırlar;

-qloballaşan dünyada iqtisadiyyatlar bir-birindən təsirlənir və qeyri-sabitlik ölkədən-ölkəyə keçir.

Siyasi sabitlik sistemin sabitliyi ilə dəyişkənliyi arasındakı əlaqəni səciyyələndirir, onların əlaqəsinin müəyyən parametrlərini təsbit edir, cəmiyyətin müəyyən zaman kəsiyində dinamik vəziyyətini ifadə edir.

## 2.Siyasi sabitliyin mahiyyəti və səviyyələri

Siyasi sabitliklə bağlı nəzəriyyələr XX əsrin 60-ci illərinin əvvəllərində yaranmışdır. Xarici mənbələrdə siyasi sabitliyə müxtəlif yanaşmalar (struktur-funksional, təsisatlı, davranış) mövcuddur.Amerika sosioloqu S.Lipset “Siyasi şəxsiyyət” adlı kitabında (1963) demokratik sabitlik konsepsiyasını, politoloq D.İston isə “Siyasi həyatın sistemli təhlili” əsərində (1965) sabitliyin mühafizəkar modelini irəli sürmüşdür.

Kolumbiya universitetinin professoru C.Rotşild “Etnopolitika” əsərində (1981) modernləşmə prosesində milli azlıq liderlərinin siyasiləşməsinin təsiri

altında bütün sosial qrupun siyasiləşməsindən və etnomilli münaqişələrin genezisində siyasi amillərin üstünlüyündən bəhs etmişdir.

“Sabitlik” termini (latınca “stabilis”-sabit) “daimi sabit vəziyyətə gətirmək və ya bu vəziyyəti saxlamaq” mənasını ifadə edir. Siyasi sabitlik və qeyri-sabitlik cəmiyyət həyatının bütün sahələrinə birbaşa təsir edən amillərdir. Siyasi sabitliyi müəyyən xüsusiyyətlər səciyyələndirir:

-siyasi sabitlik xarici və daxili təsirlər daxilində səmərəli fəaliyyət göstərməyə və inkişaf etməyə imkan verir;

-siyasi sabitlik cəmiyyətdə gedən proseslərə nəzarət etməyə qadir olan və bu zaman quruluşunu saxlayan siyasi sistemin dayanıqlılıq vəziyyətidir.

Sabitliyin “dəyişilməz”, “dayanıqlılıq” anlayışları ilə əlaqəsi vardır. “Dəyişilməz” dedikdə müəyyən zaman və məkanda nəzərdən keçirilən obyektlərin vəziyyətinin eyni qalması, “dayanıqlılıq” dedikdə isə tərəddüdləri dayandırmaq və sistemin pozulmuş tarazlığını bərpa etmək qabiliyyəti başa düşülür. Həm dağıdıcı, həm də yaradıcı proses davamlı ola bilər. Davamlılıq dəyişikliklərin ardıcıl həyata keçirilməsini və proqnozlaşdırılmasını nəzərdə tutur. Davamlılıq və sabitliklə bağlı üç əsas yanaşmaya diqqət yetirilməlidir:

1.Siyasi sabitlik bütöv və öz funksiyalarını səmərəli həyata keçirməyə qadir olan müxtəlif siyasi subyektlər arasında əlaqələr sistemidir. Sosial kontekstdə sabitlik tərəqqi və sosial həmrəyliyin vəhdətidi. Müəyyən elmi əsərlərdə sabitlik sosial konsensusa malik inkişaf vəziyyəti, davamlılıq isə sistemin pozulmuş tarazlığı bərpa etmək qabiliyyəti kimi səciyyələndirilir.

2.Bəzi elmi ədəbiyyatlarda ya anlayışlardan biri işlənmir, ya da sinonim kimi işlədilir. Belə ki, S.Hantinqtonun “Dəyişən cəmiyyətlərdə siyasi nizam” əsərində “sabitlik” və “davamlılıq” eyni mənalarda işlədilmişdir [Zagulaev, 2005, p.69-81].

3.Bu qrupa aid olan əsərlərdə “davamlılıq” və “sabitlik” bir-birinə zidd anlayışlardır. “Davamlılıq” müqavimət, daxili siyasi qeyri-sabitliyin səbəbi kimi başa düşülür və cəmiyyətdə islahata mane olur.

Rus alimləri L.Alisova və Z.T.Qolenkova nisbi qeyri-sabitlik şəraitində öz identifikasiyası və funksiyasını saxlayan mürəkkəb sistemləri səciyyələndirmək üçün “sabitlik” kateqoriyasından istifadə edilməsini qanunauyğun hesab etmişlər [Alisova, Uolenkova, 2000].

Siyasi sistemin mövcudluğu sabitliyin olmasını tələb edir. Təbii ki, hər bir dövlətdə siyasi sabitliyə müəyyən amillər (coğrafi şərait, əhalinin sıxlığı və sayı, onun yaş strukturu, milli gəlirin miqdarı, seçkilərdə iştirak, vətəndaşların sosial və siyasi fəallığı) təsir göstərir. A.Qalkin haqlı olaraq sistemin mütləq sabitliyini abstrakt hesab edir. Ona görə, mütləq sabitlik təkcə sistemin hərəkətiszliyini deyil, həm də onun elementlərinin hərəkətsizliyini, onların

kənar təsirlərdən təcrid olunmasını ifadə edir. Belə sabitliyə hətta daxili dinamikadan məhrum olan “ölü” sistemlər də malik deyil [Galkin, 1991, p.6].

R.Benediksə görə, insanlar arasında elə vacib bağlar mövcuddur ki, onlar cəmiyyətin sabitliyini təmin edə bilir. T.Billy, K.Boudinq və R.Kimber siyasi sabitliyi cəmiyyətdə real təhlükənin olmaması kimi qiymətləndirmişlər.

Rus politoloqu A.S.Makarıçev sabitlikdən çoxölçülü fenomen kimi bəhs etmişdir. O, həm Qərb, həm də rus alimlərinin qəbul edilmiş yanaşmalarını müəyyənləşdirmişdir:

-sabitlik cəmiyyətdə qeyri-qanuni zorakılıq təhlükəsinin olmaması və ya böhran vəziyyətində dövlətin mübarizə qabiliyyətidir;

-konstitusiya quruluşu və onun saxlanması sabitliyin müəyyənedici amilidir;

-siyasi sabitlik hakimiyyətin legitimliyinin nəticəsidir;

-sabitlik siyasi sistemdə struktur dəyişikliklərin olmaması və ya onları idarə etmək bacarığıdır;

-sabitlik davranış modeli və sosial atributdur.

Bəzi tədqiqatçılar siyasi sabitliyi müəyyən dövlət kimi başa düşürlər. Rus politoloqu Y.V.İrxinə görə, siyasi sabitliyi aşağıdakı cəhətlər səciyyələndirir:

-siyasi sabitlik cəmiyyətin siyasi həyatının, siyasi təsisatlarının sabit fəaliyyətində, tələblərə riayət edilməsində təzahür edən vəziyyətidir;

-siyasi sabitlik hüquqi, siyasi və əxlaqi normaları, sosial ənənələri, sosial sistemin strukturunu və keyfiyyətini qoruyaraq onun səmərəli fəaliyyətinə və inkişaf etməsinə imkan verir [Alisova, Galinkova, 2000].

Dinamik sistemlər dəyişikliklərə daha yaxşı uyğunlaşdığı üçün belə sistemlərdə sabitlik dərəcəsi özünü müdafiəni təmin edir. Dinamik sistemlərin sabitliyi sistemi yaradan və onu dəyişən proseslərin qeyri-sabit balansından asılıdır. Sistemin elementləri çəkisinə və roluna görə fərqləndiyi üçün onlar arasında qeyri-sabit tarazlıq olur. Çəki və funksional rollar tez-tez dəyişdiyinə görə əvvəlki balans yox olur, sistem dağılmırsa, yeni balans yaranır. Bu da daxildən və xaricdən sistemə əlavə impulsların girişini təmin edir. Sistemin sabitliyi yeni balansın yaranması ilə köhnə balansın yaranması arasındakı müddətdən asılıdır.Sistemin və mühitin daim dəyişikliklərə məruz qalması böyük əhəmiyyət kəsb edir. Cəmiyyət dinamik orqanizm olduğu üçün sistemdə və mühitdəki inkişaf çox zaman adaptasiyanı pozur və dağıdıcı impulsları gücləndirir. Odur ki, sistemin mühitə və mühitin sistemə tam adaptasiyası qeyri-mümkün olur. Tədqiqatçılar uyğunlaşmanın iki əsas modelinə diqqıt yetirirlər:

Birinci modeldə ətraf mühitlə sistem arasındakı münasibətlər sistemin xeyrinə qurulur və ətraf mühit sistemə uyğunlaşır.

İkinci model sistemin daha çox dinamikliyinə şərait yaradır. Geniş yayılmış bu modeldə adaptasiya xaricdən gələn impulsların təsiri ilə sistemin

dəyişikliklərinə əsaslanır. Sistemə ətraf mühitdən gələn impulsları 3 qrupa (sabitləşdirici, pozucu, neytral) bölmək olar. Qruplar öz üzvlərinin maraqlarını müdafiə etdiyi üçün onların sistemə təsiri müxtəlif olur və qruplar arasındakı münasibətlər maraqların uyğunluğuna görə müəyyənləşir. Maraqlar üst-üstə düşdükdə sistemi saxlamaq üçün sabitliyi təmin edən tarazlıq yaranırsa, maraqlarda ziddiyyətin artması tarazlığı pozur və sabitlik üçün təhlükə yaradır. Balansın dözümsüzlük dərəcəsi dəyişikliklərin sürəti və istiqaməti ilə müəyyənləşir. Tədrici dəyişikliklər zamanı sistemin daxili balansı uzunmüddətli və möhkəm olur. İctimai sistemdə baş verən dəyişikliklər bir sıra əlamətlərlə səciyyələnir:

-dəyişikliklərin kompleksliliyi. Sosial strukturda maraqlar reallaşdırılarkən dəyişikliklər baş verir.Yeni maraqlar əvvəlcə intuitiv şəkildə qəbul edilir və onların dərk olunması illər tələb olunur;

-dəyişikliklər ictimai sistemin keçid elementi kimi. Sosial struktur istehsal qüvvələrinin inkişafına uyğun olaraq sıçrayışlarla dəyişir. İctimai şüurdakı dəyişikliklər və onların diskretliyi balansa dağıdıcı təsir göstərir, ictimai sistemi böhran vəziyyətinə salır;

-ictimai sistemlərdə baş verən dəyişikliklər əksər hallarda məqsədyönlü siyasi iradənin güclü təsirinə məruz qalır. Siyasi iradənin məqsədindən asılı olaraq dəyişikliklərin ya qarşısı alınır, ya da onlar stimullaşdırılır.Zəif dəyişikliklər zamanı siyasi iradənin sistemin funksiyasını artıran amil kimi rolu azalır. Sistemin sabitliyi təhlükə altında olduqda isə bu iradənin rolu artır. Dəyişikliklərlə sabitlik arasında qarşılıqlı əlaqə mövcuddur. Modernləşən cəmiyyətlərdə siyasi mədəniyyətin sahə və komponentlərinin müxtəlif sürətlə dəyişməsi və inkişafı gərginlik və ziddiyyətlər yaradır. Nəzərə almaq lazımdır ki, siyasi təsisatlar iqtisadi və sosial təsisatlarla müqayisədə ləng dəyişir. Modernləşmə prosesi siyasi sistemin sabitliyinin əsas göstəricisi olsa da, o, bir sıra hallarda qeyri-sabitlik yaradır. Amerikalı tədqiqatçılara görə, siyasi sistemdə daimi və möhkəm sabitlik orta sinif hesabına əldə edilir.

Amerika politloqlarının fikrincə, əgər cəmiyyəti təşkil edən sinif və qrupların maddi, mənəvi və mədəni təminatı yüksəkdirsə, onda münaqişə və inqilablar bu cəmiyyətə yaddır. Orta sinif mərkəzçi demokratik partiyaları dəstəkləməklə sağ və sol ekstremist qrupları marginallaşdırır və sosial münaqişələri ört-basdır edir. N.Makiavelli “Hökmdar” əsərində siyasi sabitliyin əhəmiyyətindən bəhs edərək onu dövlətin uzun müddət mövcudluğu üçün əsas şərt hesab etmişdir. O, sabitliyin təminatı və qorunması üçün dövrünün hadisələrini təhlil etmiş və öz fikirlərini dövlət başçısı ilə bölüşmüşdür.

V.Q.İvanov siyasi sabitliyə təhdidləri həm rejimin zəifliyi, həm də cəmiyyətdəki etiraz əhval-ruhiyyəsinin səviyyəsi ilə əlaqələndirmişdir [Ivanov, 2011, p.23].

Göründüyü kimi qeyri-sabitlik rejimin legitimlik səviyyəsi, siyasi təsisatların inkişafı və iqtisadi inkişaf sürəti, siyasi kommunikasiyalar şəbəkəsinin təkmilləşdirilməsi ilə tərs mütanasibdir. Qlobal iqtisadi böhran və Şərqdə siyasi rejimlərin dağıdılması ilə əlaqədar siyasi qeyri-sabitlik əksər siyasi sistemlər üçün səciyyəvidir [Annokhin,1996, p.6].

S.Lipset “Siyasi insan.Siyasətin sosial əsası” əsərində iqtidar sisteminin sabitliyinin legitimlik və hakimiyyətin iqtisadi səmərəliyi ilə təyin olduğunu bildirmişdir [Lipset, 1981, s.6].

Siyasi sistemin sabitliyi kollektivin məqsədlərinin uyğunluq dərəcisindən asılıdır. Uyğunluq formal konfiqurasiya ilə müəyyən edilir:

-siyasi sistemin strukturu;

-siyasi elitanın maraq dərəcəsi;

-sosial reallığın cəmiyyət üzvləri tərəfindən qəbul edilməsi.

XX əsrin 80-ci illərində Rusiyada yaranmış siyasi qeyri-sabitlik müəyyən amillərlə bağlı idi:

-cəmiyyətdə sosial-iqtisadi dəyişikliklərin baş verməsi;

-milli maraqların və xarici əlaqələrin nəzərə alınmaması;

-regional siyasətin inkişafına dair konseptual strategiyanın olmaması;

-rəsmi sosial-iqtisadi proqramların yoxluğu;

-cəmiyyətin təhlükəsizliyinin təmin edilməsi sahəsində qeyri-müəyyənlik [Ervin,1987, p.33].

Cəmiyyətin siyasi sabitliyinin bir göstəricisi də onun xarici mənfi təsirləri neytrallaşdırmaq qabiliyyətidir. Belə təsirlər sistemi qeyri-sabitlik vəziyyətinə salır və onun məhvi üçün zəmin yaradır. Mövcud sistemin həm tərəfdarları, həm də əleyhdarları tərəfindən vətəndaş müharibəsi, siyasi zorakılıq halları başlayır. Cəmiyyətdə narazılıqların çoxalması, siyasi qərarların qəbulunun gecikməsi gərginliyi artırır, əhali ilə iqtidar arasında münaqişəyə səbəb olur, rejimin siyasi dəstəyini azaldır. Siyasi sabitliyin pozulmasında maraqlı olan, situasiyadan istifadə etməyə çalışan qüvvələr siyasi partiyalar və hərəkatlar yaratmaqla hakimiyyətə gəlməyə cəhd edirlər. Bu cəhətlər keçid dövrünü yaşayan əksər dövlətlər üçün səciyyəvidir.

Siyasi sabitlik etibarlılıq dərəcəsinə görə (yüksək,orta və aşağı) fərqlənir. Yüksək siyasi sabitliyi bir sıra əlamətlər səciyyələndirir:

-daxili və xarici siyasi kursun reallaşdırılması prosesində ölkədə sosial-siyasi birliyin təzahürü;

-əhalinin həyat səviyyəsinin keyfiyyətini təmin edən səmərəli sistemin yaradılması;

-islahatların xalqın maraqlarına uyğun aparılması;

-cəmiyyətdə icra strukturlarına inamın yaranması;

-cəmiyyətdə təzahür edən narazılıqların vaxtında və uğurla həll edilməsi;

-cəmiyyət həyatının bütün sahələrində demokratikləşmənin səviyyəsi;

-ölkə rəhbərliyi ətrafında sosial-siyasi birliyin yaranması;

-cəmiyyətdə yarana biləcək narazılıqların ölkə rəhbərliyi tərəfindən uğurla həll edilməsi;

-dövlət strukturlarının xalqın maraqlarına uyğun fəaliyyəti.

**3.Siyasi sabitliyi şərtləndirən amillər**

Siyasi fəaliyyətin təşkilinin ali forması olan siyasi təsisatların əsas məqsədi siyasi sabitliyi təmin etmək və onu qorumaqdır. T.Parsonsa görə, "sistem o zaman sabit və ya nisbi tarazlıq halında olur ki, onun strukturu ilə proseslər arasında, onun daxilində və onu əhatə edənlər arasında xüsusiyyətlər, münasibətlər dəyişməz qalsın. Dinamik sistemlərdə tarazlığın bu qaydada saxlanması endogen (daxili səbəblərdən yaranan) və ekzogen (xarici səbəblərdən yaranan) proseslərdən asılıdır. Bu proseslərin nəzarətdən çıxması strukturun dəyişməsi ilə nəticələnə bilər. Siyasi sabitliyə nail olmuş dövlətlər üçün bir-biri ilə sıx bağlı olan xüsusiyyətlər səciyyəvidir:

-millətə xas olan xüsusiyyətlərin bölüşdürülməsi;

-idarəçilik formasının irsiliyi;

-hakim elitanın tədricən və qanuna uyğun əvəzlənməsi;

-hakim strukturların balanslaşdırılması üçün saxlama və dəfetmə sistemlərinin mövcudluğu;

-tərkibində müxalifətin təmsil olunduğu partiyaların fəaliyyət göstərməsi;

-orta sinif nümayəndələrinin çoxluğu.

Sosial-demokrat Fridrix Lassal milli dövləti cəmiyyət tarixinin birləşdirici və təşkiledici başlanğıcı hesab etmişdir. O, dövləti ideoloji üstqurum, sosial qaydanı, insanların birgəyaşayışı və həmrəyliyini təmin edən siyasi cəmiyyət adlandırmışdır. Lassala görə, dövlət milli mənafeyi və inkişafı təmin edən təməl struktur və yetkin orqanizmdir. Dövlət sosial siyasi sabitliyə xalqın mənafeyinə və cəmiyyət üzvlərinin maraqlarına əsaslanmaqla nail olur.

Jan Jak Russonun fikrincə, cəmiyyət təkmilləşdikcə insanlar dövlətin siyasi-hüquqi fəaliyyəti nəticəsində formalaşan və inkişaf edən yeni sosial birlikdə yaşayırlar. Cəmiyyətdaxili prosesləri tənzimləyən mexanizm kimi dövlətin ali siyasi məqsədi sabitliyi və tərəqqini təmin etməkdir. O, güc resursları vasitəsilə ictimai-siyasi sabitliyə və cəmiyyətin ahəngdarlığına nail olur. Bu yolda hər cür vasitədən, o cümlədən güc və zorakı təzyiqdən istifadə edir.

Daxili siyasi sabitliyin muxtariyyət və səfərbərlik kimi növləri vardır.Sabitlik və inkişaf səfərbəyliyin "yuxarıdan" başlandığı sosial strukturlar üçün səciyyəvidir. Bu zaman cəmiyyət müəyyən müddət ərzində məqsədə çatmaq üçün səfərbər olunur. O, böhran və münaqişələr nəticəsində, ya da zorakılıq və məcburiyyət yolu ilə formalaşıb fəaliyyət göstərə bilər. Belə

sistemlərdə cəmiyyətin maraqlarını ifadə edən və sıçrayışı təmin etməyə qadir olan dövlət, hakim partiya, xarizmatik lider məsuliyyəti öz üzərinə götürür.

Rejimin hərbi vəziyyəti və ordudakı əhval-ruhiyyə, cəmiyyətdəki sosial gərginliyin səviyyəsi, hökumət əleyhinə siyasi koalisiyanın yaranması və böhranın artmasına səbəb olan digər sosial amillər siyasi sabitlik üçün təhdidlər yaradır. Tarixi təcrübə göstərir ki, səfərbərlik nəticəsində yaranan sabitlik qısamüddətli olur.

Siyasi sabitliyin yaranmasında legitimlik və səmərəlilik mühüm rol oynayır. S.Lipset "Siyasi insan. Siyasətin sosial əsası" əsərində bu cəhətə xüsusi diqqət yetirərək yazır: "*idtidarın legitimliyi iki yolla-ya əvvəlcədən birdəfəlik müəyyənləşdirilmiş normaları olduğu kimi qəbul etmək, ya da ənənəvi normalardan intina etmək və cəmiyyətdə yaranmış sosial*-iqtisadi problemləri *səmərəlilik hesabına həll etməklə əldə oluna bilər*" [Lipset, 1960, s.6].

S.Hantinqton sabitliklə anarxiya arasındakı fərqin demokratiya ilə diktatura arasındakı fərqdən daha çox fundamental xüsusiyyətə malik olduğunu bildirmişdir.

Amerikalı alim R.Dal aşkarlıq və bəhsləşməni sistemin demokratikliyinin göstəricisi hesab etmişdir.

Demokratik cəmiyyətlərdə siyasi mühit iqtidar-müxalifət münasibətlərinin təsiri altında formalaşır. Siyasi sabitliyi qorumaq üçün iqtidar müxalifətlə bağlı planını şəraitə uyğun həyata keçirməli və yaranmış problemləri həll etmək, gərginliyi azaltmaq məqsədilə cəmiyyətdə konsensus mühiti yaratmalıdır. Belə mühiti formalaşdırmaq tədrici islahatları həyata keçirməyə imkan verir.

Demokratiya ilə siyasi sabitlik arasında sıx əlaqə mövcuddur. Demokratiya sadəcə siyasi sabitliyin nəticəsi deyil, həm də onun yaranmasını şərtləndirən amildir.Siyasi sistemin sabitliyi onun universal xüsusiyyətidir.

Siyasi fəaliyyətin mühüm əlamətlərindən biri onun səmərəliliyidir. M.Veber səmərəliliyin 2 növündən - məqsədyönlü səmərəlik (şüurlu, siyasi məqsədlərin elmi əsaslandırılması) və dəyərlərin dərk edilməsindən bəhs etmişdir. Siyasi fəaliyyətin ölçüsü olan səmərəlilik ideologiya ilə bağlıdır. Siyasi fəaliyyətin-konstruktiv-pozitiv, neqativ-destruktiv, strateji və operativ-taktiki növləri vardır. Leqal və qeyri-leqal, açıq və gizli, nizamlı və kortəbii, təsisatlanmış və təsisatlanmamış formalara malik olan siyasi fəaliyyət könüllü və səfərbəredilmiş fəaliyyətdir.

İdeoloji bağlılığa görə insanları cəmiyyətdə iki qrupa ayirmaq olar. Bəziləri ideologiyaya qəlbən bağlı olduğu halda, digərləri ideoloji prinsipləri tam mənimsəməmiş insanlardır. Digər tərəfdən hər bir insan ideoloji prinsipləriöz təbiətinə uyğun anlasa da, o, cəmiyyətin düşüncə səviyyəsi və idarəedənlərin mövqeyinə görə davranmalı olur. Fransız filosofu Mişel Fokoultun təbirincə desək, ideologiya hər bir kəsin rəyini qəbul etsə də, fərqli məna kəsb edir.

İdeoloji bağlılıq insanı daim müşayət edən və asılılıqda saxlayan bir gücdür. Bu cəhətə önəm verən Veber demişdir: “*tarixə materialist baxış insanın istədiyi kimi minib-düşə biləcəyi bir taksi deyil, çünki ona bir dəfə minən inqilabçılar belə ondan düşməkdə azad deyillər*”.

Siyasi fəaliyyətin inkişafına təsir edən amillər sırasında KİV xüsusi yer tutur. O, siyasi proseslərin tərkib hissəsi olub sosial-siyasi hadisələrin mərkəzində durur. Siyasi hadisələrdə KİV-in fəaliyyəti çoxcəhətlidir. O həm təşkilat, həm təbliğat, həm də maarifçilik funksiyalarını yerinə yetirir. KİV cəmiyyətin yekdilliyinə və ya parçalanmasına xidmət edir. O, cəmiyyətlə hakimiyyət arasında həm vasitəçi, həm də barışdırıcı rol oynayır, müxtəlif təbəqələr və qruplar arasında ideya-siyasi, tərbiyəvi və maarifçilik tədbirlərini həyata keçirir. KİV-in obyektivliyi və cəmiyyəti düzgün məlumatlandırması siyasi mədəniyyət səviyyəsinin yüksəlməsinə xidmət edir. Cəmiyyət, siyasi təşkilatlar və vətəndaşlar informasiya obyekti kimi çıxış edir və siyasi kommunikasiya prosesinin subyekti rolunda fəaliyyət göstərirlər. Bu funksiyanınn yerinə yetirilməsində KİV onlara kömək edir.

Demokratik cəmiyyətdə KİV hökumət bə dövlət orqanları üzərində nəzarəti həyata keçirir, müxtəlif siyasi kampaniyaların reallaşmasında önəmli yer tutur. O, siyasi şüurun və siyasi mədəniyyətin həm təsisatı, həm də subyekti rolunda çıxış edir.

Tədqiqatçılar təhsilin şəxsiyyətin siyasi şüuru və davranışına güclü təsirindən bəhs edirlər. İnsanın təhsil səviyyəsinin yüksək olması onun siyasi fəaliyyətinin səmərəliyini şərtləndirir.

Amerikalı alim V.Key vətəndaşların siyasi rolunda təhsil səviyyəsinin dörd istiqamətinə diqqət yetirmişdir:

1.Siyasi həyatda iştirak etməyə yüksək səviyyədə tələbat mükəmməl təhsili olan insanlarda nəzərə çarpır.

2.Yaxşı təhsil almıış şəxslər siyasi həyatda iştirakın səmərəliyinə inanır və bu səmərəliliyi siyasi proseslərə təsir etməklə siyasi hakimiyyətə gəlməkdə görürlər.

3.Yüksək təhsilli şəxslər siyasətlə daha çox maraqlanır və ona cəlb olunurlar.

4.Təhsil vətəndaşlara siyasi cəhətdən fəal olmağa imkan verir.

Q.Almond və S.Verba “Vətəndaş mədəniyyəti” əsərində (1963) təhsilin siyasi şüura və davranışa ciddi təsir göstərdiyini qeyd edirlər. Onlara görə, yüksək təhsilli şəxs hökumətin insanlara təsirini yaxşı dərk edir, siyasi cəhətdən daha məlumatlı və siyasi məsələlərə öz münasibətini bildirməyə qadirdir.

Amerika cəmiyyətində aparılan empirik tədqiqatlar cəmiyyət üzvlərinin təfəkküründə ciddi fərqlərin olduğunu aşkara çıxarmışdır.

Vətəndaşların siyasətdə və dövlətin idarə olunmasında iştirakı məsələsi ilk dəfə İnsan hüquqları haqqında Bəyannamənin 21-ci maddəsində təsbit olunmuş və BMT-nin Baş Assambleyasının 10 dekabr 1948-ci il tarixli toplantısında qəbul edilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasında vətəndaşların cəmiyyətin və dövlətin siyasi həyatında maneəsiz iştirak etmək (maddə 55) hüququ öz əksini dövlət orqanlarına seçmək və seçilmək, referendumda iştirak etmək (maddə 56), ictimai birlik yaratmaq və bu birliyə daxil olmaq (maddə 58), kütləvi aksiyalar keçirmək və s. hüquqları öz əksini tapmışdır.

**4.Nəticə**

Beləliklə, mürəkkəb fenomen olan siyasi sabitlik özündə aşagıdakı cəhətləri ehtiva edir:

-siyasətin əsas subyektləri arasında qarşılıqlı əlaqənin keyfiyyətini əks etdirir;

-güc strukturlarının fəaliyyətinin səmərəliliyini göstərir;

-siyasi rəhbərliyin nüfuzunu təzahür etdirir;

-cəmiyyətin zamanın çağırışlarına adekvat cavab vermək qabiliyyətini ifadə edir.

Siyasi sabitlik siyasi qüvvələr arasında sabitlik və konsensus səviyyəsini qorumaqla problemlərin təcili həll edilməsinə yönəlmiş prosesdir:

-siyasi sabitlik məqsəd və dəyərlərin, onların reallaşdırılması vasitələrinin davamlılığını əks etdirən əlaqə və münasibətlər sisteminin üstünlük təşkil etdiyi nizamdır;

-sabitlik sosial-iqtisadi və siyasi həyatın subyektlərinin sistemə pozucu daxili və xarici təsir göstərən müqaviməti və onları neytrallaşdırmaq qabiliyyətidir;

-sabitlik sistemin mövcudluğu və inkişafı üçün mühüm mexanizmdir [Vasik, Gardarici, 2005, p.217-218].

Siyasi sabitliyi bir sıra amillər şərtləndirir:

-orta təbəqənin artması və sabit iqtisadi inkişaf;

-siyasi mədəniyyətin yüksək səviyyəsi, əks maraqların məqsəd və mövqelərini şərtləndirən demokratik dəyərlər;

-qanuna hörmət, demokratik ənənələrin mövcudluğu, tolerantlıq mühiti;

-əhalinin loyallığını qorumaq üçün siyasi həyatda iştirak etməyən qeyri-ənənəvi sosial qrupların siyasi təsisatlara sərbəst çıxışının təmin edilməsi;

-iqtisadi sahədə sosial qrupların maraqlarını reallaşdırılmaq imkanı. Əks təqdirdə hakimiyyətin hamını eyni dərəcədə təmin edə bilməməsi cəmiyyətdə qarşıdurmaya və sosial gərginliyə səbəb olur;

-hərbçilərin mülki hakimiyyəti tanıması və ona neytral münasibəti.

Siyasi sabitlik kompleks problemdir, onun effektiv tədqiqi sistem yanaşması çərçivəsində mümkündür: Bizim siyasi sabitliyin müəyyənləşdirilməsinə yanaşmamız onun cəmiyyətin vəziyyətini xarakterizə edən sistem xarakteristikası kimi dərk etməyə əsaslanır. Bu halda siyasi sabitlik bütöv, çoxfaktorlu bir fenomen kimi görünür və onu fərdi aspektlərinə endirmək olmaz. Sosial sabitlik bizim tərəfimizdən onun xarici və daxili təsirlərə davamlı olduğu sosial sistemin vəziyyəti, sistemin transformasiya prosesləri zamanı sistemin müəyyən parametrləri saxlamaq və ya yeni parametrlər hazırlamaq qabiliyyəti kimi başa düşülür. Siyasi sabitlik sosial sabitliyin bir növüdür, cəmiyyətin siyasi sferasının maddi və mənəvi sərvətlərin təkrar istehsalına, siyasi münasibətlərin müəyyən nizamına riayət olunmasına təminatların mövcud olduğu vəziyyətdir.

## ƏDƏBİYYAT

1. Alisova, V. N., & Galinkova, Z. T. (2000). *Political sociology*. Moscow.
2. Alisova, L. N., & Uolenkova, Z. T. (2000). *Political sociology*. Moscow.
3. Annokhin, M. D. (1996). *Political stability: Dynamics, adaptation* (p. 6). Moscow.
4. Cam, E. (1977). *Siyaset bilimine giriş* (s. 99). İstanbul: İstanbul Üniversitesi Yayınları.
5. Laszlo, E. (1987). *Evolution* (Chapter 9, p.33).
6. Ivanov, V. G. (2011). Natural level of education as a factor of stability of the political regime. Part I. *Bulletin of RUND: Political Science Series*, *7*(4).
7. Lipset, S. (1960). *Siyasi insan: Siyasətin sosial əsası* (s. 6).
8. Averonov, Y. I. (Ed.). (1993). *Political science: Encyclopedic dictionary* (p. 281). Moscow.
9. Galkin, A. (1991). *Bourgeois society in search of stability* (p.6). Moscow.
10. Vasik, M. A., & Gardarici, M. (2005). *Political science* (217–218).
11. Zagulaev, V. (2005). Stability and competitiveness of social systems. *Bulletin of Udmurt University*, (6), 69–81.

## REFERENCES

1. Alisova, V. N., & Galinkova, Z. T. (2000). *Political sociology*. Moscow. (in Russian)
2. Alisova, L. N., & Uolenkova, Z. T. (2000). *Political sociology*. Moscow. (in Russian)
3. Annokhin, M. D. (1996). *Political stability: Dynamics, adaptation*. Moscow, 6 p. (in Russian)

**4.** Cam, E. (1977). *Introduction to political science*. Istanbul: Istanbul University Press, 99 p. (in Turkish)
**5.** Laszlo, E. (1987). *Evolution* (Chapter 9, p.33). (in English)
**6.** Ivanov, V. G. (2011). Natural level of education as a factor of stability of the political regime. Part I. *Bulletin of RUND: Political Science Series, 7*(4). (in Russian)
**7.** Lipset, S. (1960). *Political man: The social bases of politics*, p.6. (in Azerbaijani)
**8.** Averonov, Y. I. (Ed.). (1993). *Political science: Encyclopedic dictionary*. Moscow, p.281. (in Russian)
**9.** Galkin, A. (1991). *Bourgeois society in search of stability*. Moscow, p.6. (in Russian)
**10.** Vasik, M. A., & Gardarici, M. (2005). *Political science*, 217–218 (in Russian)
**11.** Zagulaev, V. (2005). Stability and competitiveness of social systems**.** *Bulletin of Udmurt University*, (6), 69–81. (in Russian)